

Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

7 may 2020-ci il
Cümə axşamı

№ 15 (3480)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

## QOŞULMAMA HƏRƏKATININ TƏMAS QRUPUNUN ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLİB




Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilib.

Prezident İlham Əliyev Zirvə görüşündə açılış nitqi söyləyib. O deyib ki, COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik. Prezident bunun Azərbaycanın təşəbbüsü ilə keçirilən 2-ci Zirvə Görüşü olduğunu qeyd edərək ölkənin sədri olduğu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının onun təşəbbüsü ilə aprelin 10-da COVID-19-a qarşı təşkil edilən Zirvə Görüşünü xatırladıb.

Zirvə görüşündə Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün vaxtında həyata keçirilən çevik və zəruri qabaqlayıcı tədbirlər barədə məlumat verən dövlətimizin başçısı vurğulayıb ki, pandemiya dövründə bizim üçün prioritet məsələ insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsidir. Ölkədə həyata keçirilən bütün bu tədbirlər nəticəsində kütləvi yoluxma hallarının qarşısı alınıb. Son üç həftə ərzində Azərbaycanda xəstəliyə yoluxanların sayı ilə sağalanların sayı arasında müsbət dinamika yaranıb.

Prezident İlham Əliyev pandemiya şəraitində Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək, makroiqtisadi və maliyyə sabitliyini təmin etmək üçün görülən işlərdən də danışıb, bu məqsədlə 3,5 milyard manat məbləğində sosial-iqtisadi dəstək paketinin qəbul olunduğunu bildirib.

Sammitdə dövlət başçısı qlobal həmrəyliyin nümunəsi kimi Qoşulmama Hərəkatının üzv ölkələri olaraq BMT Nizamnaməsində nəzərdə tutulan Baş Assambleyanın COVID-19 pandemiyasına həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifini irəli sürüb.

Sonra BMT Baş Assambleyasının 74-cü sessiyasının prezidenti Ticani Məhəmməd-Bande çıxış edərək deyib ki, heç bir ölkə qarşıya çıxan bu çətinliyi, bu maneəni təkbaşına aradan qaldıra bilməz. Biz BMT olaraq çox böyük məmnunluqla bu kimi təşəbbüsləri dəstəkləyirik və istəyirik ki, COVID-19 virusunun yayılmasının qarşısını alaq.

Daha sonra BMT-nin Baş katibi Antonio Quterreşin videomüraciəti təqdim olunub. Baş katib bu təşəbbüsə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkür edib. Müraciətdə vurğulanıb ki, bu böhranın miqyası və mürəkkəbliyi əlaqələndirilmiş qlobal cavab tədbirləri tələb edir. Burada yeganə cavab cəsarətli, uzaqgörən və əməkdaşlığa əsaslanan rəhbərlik keyfiyyətləridir. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus çıxışında Azərbaycanın təşkilata verdiyi dəstəyi yüksək dəyərləndirib. O, Azərbaycan hökumətinə və xalqına ÜST-yə 5 milyon ABŞ dolları həcmində maliyyə dəstəyinə görə təşəkkür edib, həmçinin təşkilata əlavə olaraq 5 milyon dollar həcmində yardım göstərdiyi üçün Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Afrika İttifaqı Komissiyasının sədri Musa Faki Mahamat da Zirvə görüşünün təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edərək bildirib ki, pandemiyaya qarşı mübarizədə Qoşulmama Hərəkatının oynadığı rol danılmaz və əhəmiyyətlidir. BMT ilə olan işgüzar münasibətlərimiz bizdən onu tələb edir ki, biz əl-ələ verib birgə addımlayaq. Bu virusa qarşı bütün dünya miqyasında aparılan mübarizəyə gəldikdə, istənilən hər hansı siyasi sərhədləri, hər hansı bir ideologiyanı, məfkurəni kənara qoymalıyıq. Biz nümayiş etdirməliyik ki, biz birgə işləməklə necə böyük ülvi məqsədlərə xidmət edən dövlətlərik.

Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Cozef Borelin videomüraciətində COVID-19-un dünyanın müxtəlif guşələrinin biri-birinə nə dərəcədə bağlı olduğunu göstərdiyini, bunun oyanış üçün qlobal çağırış olduğunu qeyd edib. O, Qoşulmama Hərəkatının Zirvə görüşünün çağırılması təşəbbüsünü alqışlayaraq deyib ki, pandemiyanın məğlub edilməsi qlobal yanaşmanı və əlaqələndirilmiş cavab tədbirlərini tələb edir.

Sammitdə 40-dan çox üzv ölkənin dövlət və hökumət başçıları da çıxış ediblər.

Sonra Zirvə görüşünün yekununda Bəyannamə qəbul edilib.

## Xalqı sevən və qoruyan lider

***Dövlət başçısına ünvanlanan təşəkkür məktublarının əsas qayəsi belədir***

COVID-19 bəlasından xilas olmağın yollarını axtaran dünya ölkələri Vətənimizin hər guşəsində görünən və hiss etdirilən dövlət-xalq birliyindən nümunə götürürlər. Bu ağır günlərdə Xalq da öz liderinə dəstəyini əsirgəmir, ona gələcək hədəflərinə çatması üçün birlik nümayiş etdirir. Hamı bilir ki, bu birlik qarşıya çıxan çətinliklərə baxmayaraq, yaxın gələcəkdə Azərbaycanı dünyanın ən güclü və inkişaf etmiş dövlətləri sırasına çıxaracaq. Ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması ilə bağlı atdığı qətiyyətli addımlara görə Prezident İlham Əliyevə vətəndaşlardan ünvanlanan çoxsaylı minnətdarlıq məktubları da bu birliyin, Xalqın Prezidentinə olan sevgisinin, inamının təsdiqidir.

## Prezidentdən sahibkarlara dəstək

***Azərbaycan regionda iş adamlarına ən çox yardım edən ölkədir***

Qlobal pandemiyadan az itkilərlə çıxmaq üçün qabaqlayıcı tədbirlər görən Azərbaycan dövləti makroiqtisadi sabitliyi qorumaq üçün imkanlarını səfərbər edib. Ancaq buna baxmayaraq pandemiya ölkə iqtisadiyyatına ziyan vurmaqdadır. Bu rəqəmləri tam müfəssəl formada hesablamaq çətin olsa da, gündəlik itkilərin təqribən 120-150 milyon manat olduğu bildirilir. Buna baxmayaraq hökumət əhalinin sosial rifahının yaxşılaşdırılması, karantin dövründə sahibkarlara dəyən zərərin ödənməsi istiqamətində ciddi qərarlar qəbul edib.

**❖Sahibkarlar üçün 114 milyon manatlıq vergi güzəştləri olacaq**

**❖Vergi ödənilməsi müddəti uzadılır**

**❖Mikro sahibkarlıq subyektlərinə sadələşdirilmiş vergi üzrə 50 faiz güzəştin verilməsi nəzərdə tutulur**

**❖Sosial sığorta yükü azaldılır**

Azərbaycanda makroiqtisadi sabitliyin təmini, məşğulluqla bağlı problemlərin həll edilməsi, həm də makroiqtisadi və maliyyə vəziyyətinin sabit saxlanılması üçün 3,5 milyard manatdan artıq vəsait ayıran Prezident İlham Əliyev hər zamankı kimi, sahibkarların ən böyük hamisi olduğunu bir daha təsdiqlədi.

## Komitələrin birgə iclası keçirilib



Mayın 6-da Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc iclasın Prezidentin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim olunmuş İnzibati Xətalar Məcəlləsinə (üçüncü oxunuş) və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" qanunlara (üçüncü oxunuş) təklif olunan dəyişikliklərlə bağlı ictimai müzakirələrə həsr olunduğunu qeyd edib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli Prezident Fərmanı Azərbaycan dilinin hüquqi statusunun qorunmasıyla bağlı mühüm vəzifələr qoyub. Təklif edilən dəyişikliklər məhz bu Fərmanın icrası ilə əlaqədardır və ölkəmizdə dövlət dilinin saflığının qorunmasına xidmət edəcək.

***Dövlətimizin başçısı aprelin 30-da aqrar sahənin texniki təminatının gücləndirilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri aprelin 30-da Azərbaycanda heykəltəraşlıq sənətinin inkişafında xidmətlərinə görə Akif İzzətulla oğlu Əsgərovun 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Aprelin 30-da dövlətimizin başçısı Azərbaycanda estrada sənətinin inkişafındakı xidmətlərinə görə Niyaməddin Cabbar oğlu Musayevin 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri mayın 1-də Böyük Vətən müharibəsi iştirakçılarının "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945–2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev mayın 1-də Kamran Bayram oğlu Əliyevin Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi vəzifəsindən azad edilməsi və onun Azərbaycan Respublikasının Baş prokuroru təyin olunması haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri mayın 2-də Polşa Respublikasının milli bayramı – Konstitusiya Günü münasibətilə Prezident zati-alilәri cənab Andjey Dudaya təbrik məktubu ünvanlayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev mayın 5-də Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 97-Cİ İLDÖNÜMÜDÜR

## BİZ ONA-XİLASKARIMIZA BORCLUYUQ

**Biz Heydər Əliyevə borcluyuq. Cəsarətimə və hər kəsin bildiyi bu Həqiqətə sığınıb fikrimi daha da qətiləşdirmək istəyirəm. Ona görə borcluyuq ki, XX əsrdə yox olmaq təhlükəsi ilə üzləşən dövlətə, başsız qalan xalqa XXI əsri görməyi nəsib etdi. Kremlin nəfəs kəsən, səs udan divarlarını yıxıb, "Mən azərbaycanlıyam, mən o torpağın oğluyam" nidasını hər oğul hayqırmaq gücündə, qüdrətində deyildi. O, sovetlər ölkəsində "hər kəs bərabərdir" şüarının alt qatındakı gizlinləri yaxşı bilirdi. Və bilirdi ki, bu bərabərlik əgər Kremldə pozulurdusa, ona milli kimliyinə görə haqsız hücumlar olurdusa, deməli, sadə xalqı çeynəmək, qısnamaq yuxarıların əlində çətin deyildi.**

SSRİ-nin çöküşü, əslində, Azərbaycandakı duruma elə də ciddi təsir etməyəcəkdi. Çünki iqtisadi dayaqları yetərincə möhkəm olan, zavod və fabriklərin, emal müəssisələrinin var gücü ilə işləməsi müstəqilliyinə qovuşan ölkənin sabahının daha qüdrətli olacağından xəbər verirdi. Bütün bunlar isə məhz Onun sayəsində mümkün olmuşdu. Bu tarixdir, bu gerçəklikdir. Lakin sonradan Moskvadan idarə olunan siyasi dairələrin Heydər Əliyev yadigarlarına hücumları, Azərbaycanda süni şəkildə yaradılan çaxnaşmalar bizi olum və ölüm mücadiləsi ilə üzbəüz qoydu.

Çökən iqtisadiyyat, bir parça çörəyə möhtac olan xalq, bu gündən sabahı görünməyən məmləkətin əldən gedən dövlətçiliyi...

Amma yenə də O...

1990-cı il hadisələrindən sonra Moskvadakı nümayəndəliyimizə gəlişini əks etdirən kadrları yəqin ki, hər kəs görüb. Gedəcəyi yerdə öldürüləcəyini və ya sağ çıxacağını bilməyə-bilməyə o addımı atmaq doğulduğu torpağa, canından əziz bildiyi xalqa sevgi, cəsarət və qətiyyət deyildimi?



Aciz duruma düşəndə, təklənəndə, gücü yetməyəndə uşaq valideyninə, doğmasına sığınar. Bu Xalq da, bu Vətən də dar günündə Ona sığındı, Ondan imdad dilədi. Bu xalqdan savayı onun kimi vardı ki?

Gümanımız yüz yerə getsə də İnamımız bizi Ona doğru apardı. "Heydər baba, xalqı bu bəladan qurtar",-dedik. Bir qartal misalı əzəmətli qanadları ilə səni, məni, bizi və Vətənimiz Azərbaycanı qucaqladı ulu öndər...

Gözünün nuru, qolunun gücü, dizinin təpəri, yenilməz inadı idi bu torpaq. O, Vətəninin daha da qüdrətlənməsi üçün əlindən gələni etdi. Ən əsası, ömrünü xalqına bağışladı...

Tarixi yenidən yazmaq fikrim olmasa da ağ vərəqlərə ürəyimi boşaltmaq istədim. O, Azərbaycanın, Azərbaycan da Onun əbədi sevdasıdır.

*Milyonların yaddaşında bir ad var,*
*Dünən olub və olacaq, nə qədər ki, həyat var.*
*Heydər baba!*
*Bu Vətənin, bu torpağın Heydər oğlu,*
*Qeyrət oğlu, hünər oğlu, əsgər oğlu.*
*Harda olsaq adı belə bizə arxa, kömək olar.*
*Hara baxsaq Heydər baba zirvəsini görmək olar.*
*O gəlməsə, dünya bizi unudardı,*
*O gəlməsə, silinərdik xəritədən.*
*O gəlməsə, düşmənlərə yem olardı,*
*Qoca millət, qoca tarix, Azərbaycan adlı Vətən.*
*Bu gün ondan miras qalan Vətən adlı əmanət var,*
*Heydər adı çəkilirsə, demək, orda məhəbbət var,*
*Yurd-yuvaya sədaqət var!*
*Ulu öndər!*
*Sənsiz keçən hər günümüz bir ömürlük həsrətdi hey....*
*Bu yoxluğun içimizi göynətdi hey...*
*Nə yaxşı ki, xatirən var: isti, həlim, doğma, əziz!*
*Nə yaxşı ki, bu gün yenə Heydər baba deyirik biz!*

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

## ULU ÖNDƏR HAQQINDA BİLMƏDİKLƏRİMİZ

**Tariximizin nadir incilərindən olan və indiyədək çoxumuzun bilmədiyi bu faktları AMEA-nın Tarix İnstitutunun direktor müavini, professor Cəbi Bəhramov üzə çıxarıb.**



### Nizami Gəncəvinin məqbərəsinin Şəmkirə köçürülməsinə mane olub

1977-ci ildə Gəncədə alüminium zavodunun tikintisi məsələsi gündəmdəymiş. Tikinti zamanı guya Nizaminin məqbərəsinin ziyan görə biləcəyi səbəbindən bəzi "Nizamisevənlər" onun Şəmkir yoluna çıxarılması təklifini dəstəkləyirlər. Xəbər Heydər Əliyevə çatanda o buna qəti etiraz edir və Gəncəni Nizamidən, Nizamini Gəncədən ayırmağın ən böyük tarixi cinayət olduğunu deyir. Ulu öndər bu məsələ ilə bağlı Mərkəzi Komitədə ayrıca iclas keçirərək məqbərənin Gəncədən köçürülməsinin qarşısını alır.

### Dağlıq Qarabağla bağlı gizli layihənin qəbuluna imkan verməyib

1958-ci ildə Bakıya gələn erməni katalikosu II Vazgen Azərbaycan SSRİ Nazirlər Sovetinin sədri Sadıq Rəhimovla görüşür. II Vazgen ondan xahiş edir ki, "Dağlıq Qarabağ ərazisi ermənilərə verilsin". Sadıq Rəhimov bərk əsəbiləşir və ona ağır cavab verir. Vazgen İrəvana qayıdandan sonra Azərbaycan xalqına qarşı böyük bir kampaniya başlayır. Mirzə İbrahimovu, Sadıq Rəhimovu, İmam Mustafayevi millətçilikdə ittiham edib vəzifələrindən uzaqlaşdırırlar. Bu cür cəhdlər 1970-ci illərdə də davam edir, ermənilər Qarabağdan əl çəkmirdilər. 1972-ci ildə bir dəfə belə bir cəhdin qarşısı Heydər Əliyev tərəfindən alınır. 1977-ci ilin noyabrında SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin məxfi iclası keçirilir. İclasda Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistana verilməsi ilə bağlı qərar layihəsi qəbul edilməli idi. Bundan xəbər tutan Heydər Əliyev gecə ikən tarixçi İqrar Əliyevlə danışır. Professorun bu məsələ ilə əlaqədar 1945-ci ildə Mircəfər Bağırov üçün yazdığı arayış arxivlərdən tapılır və yenidən işlənilir. Arayış hazır olandan sonra MK-nın iclası keçirilir, təsdiqlənir. Heydər Əliyev bu sənədlə birlikdə Brejnevin yanına gedir və həmin məxfi layihənin nəinki qəbuluna, heç müzakirəsinə də imkan vermir.

### Qəbələ RLS-in yerini dəyişdirib

Qəbələ RLS-in əsası ötən əsrin 70-ci illərində qoyulub. Həmin vaxt ümumittifaq miqyaslı layihə institutları fəaliyyət göstərirdi. Belə institutlardan birində işləyən erməni qadın Qəbələ RLS-in layihəsini hazırlayır. Layihəyə görə, RLS tikilərkən ora gedən yüksək gərginlikli elektrik xətlərinin dirəkləri birbaşa Çuxur Qəbələdə, rayonun keçmiş paytaxtının yerində basdırılır. Məlum olduğu kimi, burada möhtəşəm qala divarlarının xarabalıqları qalırdı və Çuxur Qəbələ kəndinin həndəvərində aparılan arxeoloji qazıntılar nəticəsində antik dövrə aid qədim Qəbələ şəhərinin yeri aşkara çıxarılmışdı. Bura dirəklərin basdırılması, abidələrin məhv edilməsi Azərbaycan xalqının tarixinə böyük təcavüz olardı. Bunu görən arxeoloq Firudin Qədirov gecə saatlarında AMEA-nın "Qədim tarix şöbəsi"nin müdiri, professor İqrar Əliyevi Qəbələdə baş verənlərlə bağlı məlumatlandırır. İqrar Əliyev də Azərbaycan SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi işləyən Qurban Xəlilova müraciət edib məsələni Heydər Əliyevə çatdırmasını xahiş edir. Ali Sovetin səssiyası olduğuna görə, Q.Xəlilov bu barədə birbaşa Heydər Əliyevə məlumat verir.

Heydər Əliyev elə həmin gün İqrar Əliyevlə görüşür. Ümummilli lider vaxt itirmədən zəng



vurub SSRİ Silahlı Qüvvələrinin ən yüksək vəzifəli şəxslərindən biri, hərbi hava qüvvələrinin baş komandanı olan marşalla danışır. Ertəsi gün Mərkəzi Komitədə iki marşalın iştirakı ilə büro iclası keçirilir. Heydər Əliyev orada üzünü marşallara tutaraq: "Sizə kim ixtiyar verib ki, mənim millətimin tarixinə təcavüz edirsiz?",-deyir. İclasdan sonra komissiya yaradılır, məsələ müzakirə olunur. Növbəti iclasda verilən qərara görə, həmin dirəklər tarixi abidənin yanından çıxarılaraq 1 km aralıda basdırılır. Bununla da Azərbaycan xalqının şimal torpaqlarında yaratdığı ilk dövlətin paytaxtından qalan abidənin dağıdılmasına imkan verilmir.

**Siyasi elitanın ən mühüm elementi siyasi liderdir. Siyasi lider digər keyfiyyət və məziyyətləri ilə yanaşı, siyasi elitanı təşkil edən digər şəxslərdən fərqləndirən xüsusi, spesifik bir fenomenə də malik olmalıdır. Siyasətçinin və liderin siyasətdə və tarixdə əbədiliyinin nümunəsi olmasını müəyyən edən meyar məhz Heydər Əliyev kimi şəxsiyyətlərin sayəsində cilalanaraq politoloji anlayış kimi siyasi lüğətə daxil olub.**

Siyasi tələtümlərlə zəngin olan XX əsrdə ömrünün çox hissəsini rəhbərlikdə keçirmiş, siyasi proseslərin içində və önündə olmuş Heydər Əliyev şəxsiyyəti haqqında dünya liderlərinin və tanınmış şəxsiyyətlərin fikirlərini sizlərə təqdim edirik.

**Vladimir Putin, Rusiya Federasiyasının Prezidenti**

-Heydər Əliyev bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət xadimidir. Uzun illər ərzində onun səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir. Onun vəfatı bütün beynəlxalq birlik üçün əvəzsiz itkidir.

**Rəcəb Tayyib Ərdoğan, Türkiyə Respublikasının Prezidenti**

-Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur.

Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də, Dauninq küçəsi 10 ünvanında yerləşən iqamətgahımda bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu. Fəxr edirik ki, Britaniya şirkətləri tərəfindən qoyulan böyük sərmayələr vasitəsilə Birləşmiş Krallıq Azərbaycanın gələcək tərəqqisinə töhfələr verir.

**Jak Şirak, Fransa Respublikasının keçmiş Prezidenti**



## DÜNYA LİDERLƏRİ ÜMUMMİLLİ LİDER HAQQINDA

**Oğul Corc Buş, Amerika Birləşmiş Ştatlarının keçmiş Prezidenti**

-Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olmuşlar. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.

**Toni Bleyer, Böyük Britaniyanın keçmiş Baş naziri**

-Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər. Onun prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı.

-Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim.

**Xu Szintao, Çin Xalq Respublikasının keçmiş sədri**

-Beynəlxalq aləmdə tanınmış siyasətçi, Çin Xalq Respublikasına dostluq münasibəti bəsləyən, Çin xalqının qədim dostu olan cənab Heydər Əliyev Çin-Azərbaycan dostluq münasibətlərinin inkişafında böyük rol oynamışdır.

**Kraliça II Elizabet**

-Heydər Əliyevin Azərbaycanın inkişafında və ölkələrimiz arasında əlaqələrin gücləndirilməsində əvəzsiz xidmətləri olmuşdur. 1998-ci ilin iyul ayında Birləşmiş Krallığa səfəri zamanı onunla olan görüşümüzü çox yaxşı xatırlayıram.

**II İohan Pavel, keçmiş Roma papası**

-Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm.

**Nikolay Baybakov, keçmiş SSRİ Dövlət Plan Komitəsinin sədri**

-Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram.

# ZƏFƏR DASTANI-75

**Sovet İttifaqına hücum edərkən faşist ordusunun 5 milyon 500 min canlı qüvvəsi, 4 min 300 tankı, 24 min 980 hərbi təyyarəsi, 190 döyüş gəmisi, 44 min 200 topu vardı. Bu da onun ildırım sürəti ilə irəliləməsinə imkan verirdi.**



Almaniya ilə müharibənin 1 il 6 ayı ərzində SSRİ 11 milyon canlı qüvvə itirdi. Bütün bunlar isə o demək idi ki, sovet ordusu müharibənin gedişində yenidən formalaşdı. Eyni zamanda, qələbə ayrı-ayrılıqda kimlərinsə yox, müharibədə iştirak edən bütün xalqların birgə səyinin, fədakarlığının nəticəsi idi.

1418 gün davam etmiş 1941-1945-ci illər müharibəsinin ilk günlərindən 40 min soydaşımız ordu sıralarına səfərbər edilərək düşmənlə mübarizə səngərlərinə yollandı. Ümumilikdə isə 700 minə yaxın həmvətənimiz müharibədə iştirak etmişdir. Onlardan 300 min nəfərdən çoxu qələbə yolunda odlu cəbhələrdə canını qurban vermişdir.

*Müharibə ərzində "Sovet İttifaqı Qəhrəmanı" adı alan 11 min döyüşçü arasında 130 nəfəri, "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilən 1794 nəfərdən 34-ü azərbaycanlılardır. Ümumilikdə 400 min soydaşımız müxtəlif orden və medallarla mükafatlandırılmışdı.*

*Belə ki, həmin vaxt ölkənin mədənlərindən 85 milyon ton neft çıxarılmış, hərbi texnikanın 70 faizi bu yanacağın hesabına hərəkət etmişdir. Bakıda 130 növ silah hazırlanmış, 300 min ton taxıl və pambıq tədarük edilmişdir. Xalq öz əmanətindən Müdafiə fonduna 15 kiloqram qızıl, 952 kiloqram gümüş, o vaxtın pulu ilə 230 milyon rubl vermiş, cəbhəyə 125 vaqon isti geyim yola salınmışdır. Qələbəyə töhfəmiz tək bununla da bitməyib. Yaralı əsgərlər üçün müharibəyə 2 il ərzində Azərbaycandan 23 ton qan göndərilmişdir.*

*Qürurverici haldır ki, həmin illərdə düşmənə qarşı savaşda iştirak edən soydaşlarımız arasında daxili işlər orqanlarının 797 təmsilçisi də vardı.*

Təəssüflər olsun ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müharibə veteranlarının şərəfli fəaliyyətinə, ümumbəşəri idealar uğrunda mübarizəsinə qeyri-sağlam, laqeyd münasibət mövcud idi. Yalnız ulu öndərimiz Heydər Əliyevin ali hakimiyyətə tarixi qayıdışından sonra faşizm üzərində qələbə və bunun sevinci xalqımızın, veteranların halal haqqı kimi ölkəmizdə də təntənəli şəkildə qeyd edilməyə başlandı. Məhz bundan sonra cəmiyyətin ən dəyərli üzvləri kimi veteranlarımıza diqqət və qayğı artırıldı. Ən əsası, qələbə bayramı müstəqil Azərbaycanda dövlət səviyyəsində keçirilən mötəbər bayramlar sırasına daxil edildi.

*Ümummilli liderimizin siyasi kursunun ən layiqli davamçısı möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev də müharibə iştirakçılarına ali diqqət və qayğı göstərir. Bu diqqət və qayğı hər zaman, hər yerdə hiss olunmaqdadır və həmin sırada Daxili İşlər Nazirliyi ön cərgədədir.*

**Zaman keçdikcə tarixin qaranlıq səhifələri açılır. Ancaq elə sirlər var ki, onlar hələ də sirr olaraq qalmaqdadır. Nə vaxtsa onlar da açılacaq. 1941-1945-ci illər müharibəsinin bəzi gizlinləri kimi...**

İkinci Dünya müharibəsinin ilk günlərində 40 mindən çox azərbaycanlı könüllü olaraq cəbhəyə yollanıb. Ümumilikdə isə 700 minə yaxın soydaşımız "Böyük Vətən" üçün döyüşüb. Müharibədə sovet qoşunlarının yanacağa tələbatının 70 faizini Azərbaycan təmin edib. Bakı nefti olmasaydı Berlin təslim olmayacaqdı.

İtaliyanın şimalında, Monte di Nese şəhərində 1941-1945-ci illərdə həlak olan azərbaycanlıların xatirəsinə bir memorial abidə ucaldılıb.

***Bəs, görəsən, İtaliyada almanlara qarşı döyüşən 120 azərbaycanlının şücaəti barədə ictimaiyyətin məlumatı varmı?***

***İtalyan professor Mixail Talatay "Qafqazdan Apenninədək. Azərbaycanlılar İtaliyanın müqavimət hərəkatında" kitabında onlardan bəhs edir.*** Bildirir ki, bir çox azərbaycanlı döyüşlərdə göstərdiyi şücaətə görə medallarla təltif edilib, xeyli sayda soydaşımız Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

İtaliya və Yuqoslaviya dəstələri ilə faşistlərə qarşı mübarizə aparan, partizan kəşfiyyat-təxribat qrupuna rəhbərlik edən **Mehdi Hüseynzadəni (Mixaylo)** italyanlar bu gün də unutmurlar. O, ölümündən sonra 1957-ci ildə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Mehdinin qəbri üstündəki xatirə lövhəsinə bu sözlər yazılıb: "Burada Mehdi Hüseynzadə (Mixaylo) dəfn olunub... 2.XI.1944-cü ildə Vitovlyedə qəhrəmancasına həlak olub". Həmyerlimizin faşist işğalçılarına qarşı apardığı mübarizə və göstərdiyi şücaətlər ekranlaşdırılıb. ***Həsən Seyidbəylinin ssenarisi əsasında, Tofiq Tağızadənin rejissorluğu ilə "Uzaq sahillərdə" filmi çəkilib.***

Həmin dövrdə azərbaycanlılardan ibarət partizan hərəkatının fəal iştirakçılarından biri də **Əli Babayev** idi. O, göstərdiyi qəhrəmanlığa görə İtaliyanın "Hərbi şücaətinə görə" medalı ilə təltif edilmişdi.

**"Monte di Nese"**

Karolina Letini İtaliyanın Şimalında yerləşən Monti di Nese kəndində 120 azərbaycanlının faşistlər tərəfindən amansızcasına öldürülməsinin şahidi olub. O hər dəfə bu haqda danışarkən göz yaşları içində boğulur: ***"Döyüş səhər saat 06:00-da başladı və günortaya qədər davam etdi. Azərbaycanlılar əsl qəhrəman kimi sona qədər döyüşdülər. Sayları çox az idi-cəmi 120 nəfər. Onlar təqribən 2500 düşmən əsgəri tərəfindən mühasirəyə alınmışdı"...***




# İtaliyada Azərbaycan yadigarı

1945-ci ilin 13 aprelində baş vermiş dəhşətli hadisələr Monte di Nesedə hələ də xatırlanır. Burada İtaliya uğrunda döyüşən 120 azərbaycanlının şərəfinə xatirə lövhəsi ucaldılıb. Üstündən 75 il ötsə də Monte di Nesenin əhalisi hər il bu qəhrəmanların abidəsini ziyarətə gəlir, onların xatirələrini anırlar...

Həmin illərdə İtaliyanın Şimalında Lombard vilayətində güclü antifaşist hərəkatı var idi. Azərbaycanlı əsgərlər də bunlardan ən böyüyü-Garibaldi partizan briqadasına qoşulmaq üçün Berqamonun yaxınlığında yerləşən Alzano Lombardaya can atırdılar.

80 yaşlı Karolina Letina olanları belə xatırlayır: "Biz bilmirdik ki, onlar kimdir, hansı millətin nümayəndələridirlər. Çox qorxurduq. Həmin əsgərlər yorğun və ac idilər. Onlar kəndə pənah gətirmişdilər."

**Yerli keşiş, Ata Severino Vitali isə öz xatirələrində yazırdı:** "Yerli sakinlər azərbaycanlı partizanlara öz evlərində yer verdilər. Hətta sakinlərdən bəziləri partizanlara qoşulmaq istəyirdilər".

*Ardı 4-cü səhifədə*

# Qaydalar yumşalsa da...

**Ölkə başçısının titanik fəaliyyəti, görülən bütün işlər, qəbul olunmuş qərarlar vətəndaşların həyatını, təhlükəsizliyini maksimum dərəcədə qorumağa yönəlib.**



Bu məqsədlə, yeni növ koronavirus infeksiyası ilə bağlı ölkəmizdəki mövcud sanitar-epidemioloji vəziyyət, digər dövlətlərdə tətbiq olunan preventiv tədbirlər eləcə də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri təhlil edilərək xüsusi karantin rejiminin müddəti mayın 31-dək uzadıldı.

Karantin rejiminin uzadılmasına baxmayaraq Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata əsasən əhali arasında virusa yoluxma sürəti, xəstələrin sağalma dinamikası nəzərə alınaraq, tətbiq edilən bir sıra məhdudiyyətlərin yumşaldılmasına dair qərar verildi.

Məlumdur ki, virusun ölkəmizə ayaq açdığı ilk gündən vətəndaşların sosial izolyasiya qaydalarına ciddi riayət etməmələri karantin rejiminin tətbiqi ilə nəticələndi. Paytaxtda və yerlərdə virusun yoluxucu və öldürücü təsiri barəsində maarifləndirmə tədbirləri həyata keçirilsə də, təəssüflər olsun ki, bu gün bir çoxları özlərinin və doğmalarının həyatını düşünməyərək qaydalara əməl etməyi ciddiyə almırlar. Belə olan halda "Evdəqal" çağırışını "qulaqardına" vuraraq vətəndaş məsuliyyətini dərk etməyənlər barəsində isə polis tərəfindən haqlı olaraq müvafiq tədbirlər görüldü və görülür.

Qeyd edək ki, xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına nəzarəti həyata keçirən Azərbaycan Polisi bu həssas dönəmdə də gücləndirilmiş iş rejimində xidmətini davam etdirir.

Bir çox ölkələrlə müqayisədə ölkəmizdə vəziyyət ürəkaçandır. Ancaq ehtiyatı da əldən vermək olmaz. Karantin rejiminin yumşaldılması əhali arasında arxayınçılıq yaratmamalıdır. Bu yumşaldılan qaydaları pozmağa əsas



vermir. Vətəndaşlar "Evdəqal" çağırışına əməl edərək həm polislərimizə, həm də ağ xalatlı xilaskarlarımıza dəstək olmalıdırlar.

Məhdudiyyətlərin bir qismi aradan qaldırılsa da, virusa yoluxma surətinin, xəstəliyin yeni dalğasının qarşısını almaq üçün kütləvi tədbirlər, toplantılar keçirməməli, vətəndaşlar şəxsi gigiyena qaydalarına, əvvəlki dövrdə olduğu kimi sosial məsafə tələbinə əməl etməlidirlər.

*Aytəkin Nəcəfova,*
*fotolar Zeyni Hüseynovundur*

**Hər il may ayı gələndə göynərtisi bizi göyüm-göyüm göynədir. "Azərbaycan musiqisinin beşiyi", doğmalarımın nəfəsinə həsrət qalan xarı bülbülün vətəni Şuşamızı görmək arzusu yandırır qəlbimizi.**

O bizə tariximizin əmanəti, yüz illərin sevincini yaşayıb, qan-qadasını görən yaddaşımızın qalası idi. Pənahəli xanın yadigarı tarix boyunca alınmazlıq simvolu olub.

Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza yürüşü zamanı qalanı uzun müddət mühasirədə saxlasa da ələ keçirə bilməyib. Sanki görünməz bir qüvvə qoruyub Şuşanı. Tarixi mənbələrdə yazırlar ki, hiylə ilə, min bir fitnə-fellə Qacarın ordusu şəhərə daxil olanda hələ qorxu içindəymişlər. Onları qorxudan şuşalıların ölümdən qorxmaması və Qalanın əzəməti idi.



XX əsrdə isə alınmaz qala olan Şuşa

# Gələcəyik, Xarıbülbül...

üç dəfə ermənilərin məkrli planlarının qurbanı oldu. 1905-1907-ci illərdə yandırıldı, 1920-ci ildə onun böyük hissəsi dağıdıldı. 1992-ci ilin mayında isə...

Xocalı faciəsindən sonra dünyanın min bir nemətini yetirən təbiətin Şuşa adlı incisinin bəxti düyünə düşdü. Hər günü qovğasız ötüşməyən Şuşa sanki daş qəfəsdə qolundakı zəncirləri qırmaq üçün çırpınır, "məni xilas edin" deyirdi. O vaxt müdafiəsinə gələn könüllülər, Şuşada sabitliyi, əmin-amanlığı qoruyan polislər təpədən-dırnağacan silahlanmış düşməndən Şuşanı qoruya bilmədilər. Şuşa işğal olundu. Azərbaycanın şah damarını kəsdilər. Ağrılı, əzablı günlər yaşayan şuşalılar doğma yurd-yuvalarını, isti ocaqlarını tərk edib vətəndən-vətənə pənah gətirdilər.

28 ildir ki, şuşalılar Xarıbülbülün, bənövşənin, nərgizin ətrinə, İsa bulağına, Cıdır düzünün çal-çağırlı günlərinə, dağları-daşları yerindən oynadan Qarabağ şikəstəsinə həsrətdilər.

İnanırıq ki, bu gün bizimlə bərabər Şuşada şəhid olmuş oğullarımızın, Vaqifin, Natəvanın, Üzeyir bəyin ruhu narahat olsa da, çox yaxın zamanda Azərbaycan əsgəri bu narahatlığa, bu həsrətə də son qoyacaq.

***Ya olum, ya ölüm, ya da ki, heç nə,***
***"Dur",-deyəm gözümün yaşına bir gün.***
***Sancam ürəyimi bayraq yerinə,***
***Şuşa qalasının başına bir gün.***

Bu itkinin qiymətini bilmək üçün tariximizə baxmaq kifayətdir. Biz Şuşanı yurdumuzdan yox, taleyimizdən itirmişik.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# İtaliyada Azərbaycan yadigarı

*Əvvəli 3-cü səhifədə*

**Karolina Letina:** "1945-ci il aprelin ayının 13-də səhər tezdən 2.500 nəfərdən çox faşist əsgəri kəndə daxil oldu. Onlar kəndi əhatəyə alıb azərbaycanlı əsgərlərin harada gizləndiyini soruşurdular. Kəndlilər isə deyirdilər ki, Monte di Nessedə əsgər yoxdur. Bundan sonra onlar kəndliləri qəddarcasına döyməyə başladılar. Faşistlər atamı çağırdılar və evini axtaracaqlarını bildirdilər. Atam isə evdə iki balaca qızımdan başqa heç kimin olmadığını dedi. Onlar içəri girəndə azərbaycanlı əsgərləri gördükdə hiddətlənir və atamı evin qarşısında güllələyirlər. Faşist zabitlərinə yaxınlaşan bir nəfər onlara alçaq səslə Azərbaycan əsgərlərinin gizləndikləri evlərin yerini dedi. Deməli olar ki, kənd əsl döyüş meydanına çevrildi".



**Maria Lechininin o vaxtlar 6 yaşı vardı və baş verənləri belə xatırlayır:** "Azərbaycanlı əsgərlər qəhrəmancasına savaşırdılar. Onlar – 120 azərbaycanlı təslim olmamaq üçün 2.500 faşist əsgərinə qarşı 6 saat müqavimət göstərdilər..."

Bu döyüş professor Mixail Talatayın yazdığı "Dal lancaso Appennini" ("Qafqazdan Appeninədək. Azərbaycanlılar İtaliyanın müqavimət hərəkatında") adlı kitabında ətraflı təsvir olunub.

O, keşik Ata Severina Vitalinin xatirələrindən sitat gətirir: "Faşistlər əsirlərin üst geyimlərini, cüzdanlarını və başqa şəxsi əşyalarını topladılar. Sonra onlara ayaqqablarını çıxartmağı əmr etdilər. Beləcə, 120 nəfərdən ibarət partizan Monte di Nesedə qəhrəmancasına döyüşüb həlak oldular..."

**Karolina Letina:** "Azərbaycanlı əsgərlərin meyidləri bir neçə gün kənddə qaldı. Faşistlər onları dəfn etməyə icazə vermədilər. Lakin onlar çıxıb gedəndən sonra biz azərbaycanlıları kənd qəbristanlığının yanında dəfn etdik. Çünki əsgərlərin şəxsiyyətləri naməlum idi, faşistlər onların bütün sənədlərini götürmüşdülər"...

**Monte di Nesedəki hadisələr İtaliyanın "Corriere della Sera" qəzetində və tarixçi Andora Piasellininin "Ladıserzione" ("Qaçqınlıq") adlı kitabından belə xatırlanır:**"Azərbaycanlı əsgərlər İtalyan partizanları Pietro Herandi və Epifano Mucheletti vasitəsi ilə əlaqə qururdular. Partizanların arasında ən fəalları Ağamoğlan Ağayev və Musa Məmmədov idi. Sonuncu sonralar "balaca İtalian" ləqəbi ilə tanınıb. Rəhbərlik etdiyi 250 nəfərdən ibarət partizan qrupu İtaliyanın azad olunması istiqamətində böyük şücaət göstərib"...

*Ruslan Vəliyev,*
*polis leytenantı*





# Asayişi pozanlar saxlanıldı

May ayının 4-ü saat 11 radələrində bir qrup şəxs xüsusi karantin rejimi qaydalarını pozaraq sosial yardım almaq məqsədilə Biləsuvar rayon İcra Hakimiyyətinin inzibati binasının qarşısında toplaşmışlar.

Ərazidə xidmətdə olan polis əməkdaşları həmin şəxslərlə profilaktiki və izahedici söhbətlər apardıqdan sonra onlar ərazini tərk etmişlər. Lakin icazəsiz toplantının bir neçə üzvü ictimai qaydanın pozulmasına yönəlmiş hərəkətləri ni davam etdirmiş, onları intizama dəvət edən polis əməkdaşlarının qanuni tələblərinə tabe olmayaraq müqavimət göstərmişlər.

Görülmüş tədbirlərlə hüquqazidd hərəkətlərin və asayişin kütləvi şəkildə pozulmasının qarşısı alınaraq 7 nəfər saxlanılmışdır. Onlardan iki nəfəri barəsində rayon prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 221-ci (Xuliqanlıq) və 315-ci (Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddələri ilə cinayət işi başlanılmış, digər 5 nəfər barəsində isə İnzibati Xətalar Məcəlləsinin 510-cu (Xırda xuliqanlıq) maddəsi ilə inzibati protokollar tərtib edilmişdir.

Hazırda istintaq araşdırmaları davam etdirilir.

# CİNAYƏT MƏCƏLLƏSİNDƏ DƏYİŞİKLİK

**Azərbaycanda Cinayət Məcəlləsinə 200-ə yaxın dəyişiklik təsdiq edilib. Bununla bağlı məsələ Milli Məclisin iclasında müzakirəyə çıxarılıb.**

Dəyişiklikdə cinayətlərin dekriminallaşdırılması təklif edilir, 10 cinayət əməli Cinayət Məcəlləsindən çıxarılır, 25 cinayət əməlinə görə məsuliyyət yaradan hədd artırılır, 3 cinayətə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi şərti ilə cinayət məsuliyyətindən azad etmə müəyyən olunur.

Eyni zamanda 30 cinayətə görə azadlıqdan məhrum etməyə alternativ cəzalar (cərimə, islah işləri və azadlığın məhdudlaşdırılması) daxil edilir. 60 cinayətə görə cərimə və ya azadlıqdan məhrum etmə cəzasının yüngülləşdirilməsi nəzərdə tutulur.

Dəyişikliklər müzakirələrdən sonra səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

# Çətin olsa da şərəflidir

**Bakı Media Mərkəzi C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası ilə birgə Daxili İşlər və Mədəniyyət Nazirliklərinin dəstəyilə yeni videoçarx hazırlayıb.** Videoçarx koronavirus (COVID-19) infeksiyası ilə mübarizədə həkimlərimizlə yanaşı ön cəbhədə olan, öz səhhətlərini təhlükəyə ataraq, vətəndaşlarımızın sağlamlığının keşiyini çəkən, virusa yoluxma riskini azaltmaq üçün xüsusi karantin rejimi qaydalarına ciddi riayət edilməsinə nəzarət edən Azərbaycan Polisinə həsr olunub.

# "İsti izlər"lə...

**Nərimanov RPİ 16-cı Polis Bölməsinə ərazidəki evlərin birindən 450 manat pul və 3 min manat dəyərində qızıl-zinət əşyalarının oğurlanması barədə məlumat daxil olub.** Bölmə rəisi, polis mayoru Xəyal Şükürov işi nəzarətə götürüb. Bölmənin rəis müavini, polis mayoru Sabir Həsənov və əməliyyat müvəkkili, polis leytenantı Səbuhi Abbasovdan ibarət əməliyyat-axtarış qrupu yaradılıb. Ekspert-kriminalistin iştirakı ilə hadisə yerinə baxış keçirilib. Nəticədə əl-barmaq izlərinin bura tez-tez gedib-gələn "qardaşoğlu"ya məxsus olduğu aşkarlanıb. Həyata keçirilən təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində əvvəllər də anoloji əməllərə görə məhkum olunmuş İman Həbibov və dostu Məhəmmədəli Mehdiyev saxlanılıblar. İzi itirməyə çalışan İman tutarlı dəlil-sübutlar qarşısında aciz qalaraq törətdiyi əməli etiraf edib. İstintaq zamanı onun şəhərin digər rayonlarında da anoloji cinayətlər törətdiyi müəyyən olunub. Oğurluğu özünə peşə seçmiş İman və dostu Məhəmmədəli barədə materiallar aidiyyatı üzrə təhvil verilib. Bibisigilin toyda olduğunu fürsət bilən "qardaşoğlu"nun nəfsi yolunu yenə də həbsdən salıb.

*****

**Daha bir uğurlu əməliyyat Yasamal RPİ 29-cu Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilib. Rayonda baş vermiş oğurluq hadisəsinin üstü "isti izlər"lə açılıb.**

Şöbə rəisi, polis polkovniki Ayxan Bağırov hadisə barədə bildirdi ki, zərərçəkmiş ifadəsində həmin velosipedlə I Avropa Oyunları daxil olmaqla bir çox beynəlxalq BMX-Velo yarışlarında birincilik əldə etdiyini, buna görə də mənəvi dəyərinin ölçüyəgəlməz olduğunu qeyd edib. Əməliyyat müvəkkilləri, polis baş leytenantları Seymur Şabanovdan və Nail Bayramlıdan ibarət əməliyyat-axtarış qrupu dərhal hərəkətə keçib. Ertəsi gün oğurluqda şübhəli bilinən Əsəd Abdullayev saxlanılıb. Şöbənin baş təhqiqatçısı, polis mayoru Anar Əlizadənin suallarını cavablandırarkən Əsəd dostuna binadakı mənzillərdən birinin təmirində köməklik etdiyini deyib. Axşam saatlarında işdən qayıdarkən gözü 10-cu mərtəbədəki yanğın borusuna qıfıllanmış "TREK" markalı velosipedə sataşıb. O, əldə etdiyi qəniməti "Neftçilər" metrostansiyasının yaxınlığında 500 manata satmaq istəyərkən yaxasını ələ verib.

Velosipedi qaytarılan Kamal Kərimov vətəndaşa təhlükədən daha yaxın olan Azərbaycan Polisinə məktub ünvanlayaraq təşəkkürünü bildirməyi də unutmayıb.

# Əməkdaşlığa qərar verildi

**Daxili İşlər Nazirliyinin Polis Akademiyası və Etika Akademiyası müasir gənclərin şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan əxlaqi dəyərlər, etik davranış qaydaları, bacarıqların inkişafı və s. mövzularda zabit, eləcə də təhsilalanlara təlimlərin keçirilməsi barədə əməkdaşlığa qərar verib.**



Müzakirələr onlayn aparılıb və son ixtiralara əsaslanan "Müasir etika və daxili bacarıqların inkişafı" mövzusunda təhsilalanların maarifləndirilməsi məqsədəuyğun hesab edilib.

**Etika Akademiyasının rəhbəri Günel İbrahim etika və daxili mədəniyyətin inkişafına göstərdiyi, o cümlədən verdiyi dəstəyə görə DİN rəhbərliyinə təşəkkürünü ifadə edib.**

Qeyd edək ki, mövcud karantin dövrü başa çatdıqdan sonra razılaşdırılmış proqram çərçivəsində təlimlərə start veriləcək.

Etika Akademiyası peşəkar və yüksək davranış qaydalarını öyrədən mərkəzdir. Mərkəzin əsas məqsədi etik prinsipləri iş mühitinə aşılamaq, müasir və yüksək standartlara cavab verən kadrlar formalaşdırmaqdır.

Məlumat üçün bildirək ki, Etika Akademiyası Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Prezidenti yanında QHT dəstək Fondu, Gənclər Fondu, Bakı Şəhər Təhsil İdarəsi, Ədliyyə Akademiyası, Paşa Holdinq və bir sıra digər qurumlarla da əməkdaşlıq edir.

*Teymur Əlizadə,*
*polis kapitanı*

# Aprel ayının 29-dan mayın 5-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 203 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 96 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 198, o cümlədən borclu şəxs qismində axtarışda olan 144 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 8 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 15 nəfər ölmüş, 9 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 125 fakt müəyyən edilmişdir.

# DÜNYAYA PƏNCƏRƏ

Mərkəzi ofisi Lionda yerləşən İnterpol 194 üzv olan ölkələrə xəbərdarlıq məktubu göndərib. Qərargahdan verilən açıqlamaya görə, cinayətkarlar dünyada qida-yemək çatdıran xidmətlərin sürücülərindən narkotik və digər qadağan olunmuş malların daşınmasında istifadə edə bilirlər. Xüsusilə, COVID-19 pandemiyası ilə əlaqədar karantin rejiminin tətbiq olunduğu zamanda yeməklərin evə çatdırılması xidmətindən daha çox istifadə olunduğu üçün bu yola əl atmaq geniş yayılıb.

Qeyd olunur ki, İrlandiya, Malayziya, İspaniya və İngiltərədəki polis xidmətləri kokain, marixuana, ketamin və ekstazinin bu yolla çatdırılması üzərində artıq müəyyən əməliyyat işi qura biliblər.

Xəbərdə deyilir ki, sürücülər çox vaxt nə apardıqlarından məlumatlı olmurlar. Bəzi kuryerlər isə əvvəldən cinayətkarlarla əlbir olurlar.

*****

***Koronavirus səbəbindən sərhədlər bağlı olsa da, narkotik maddələr Avropaya yol tapmaqda davam edir. Bu barədə Birləşmiş Millətlər Təşkilatının Narkotiklə və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinə (UNODC) istinadla xəbər yayılıb. Narkotikin Avropaya əsasən Latın Amerikası ölkələrindən, xüsusilə meyvə yeşiklərində gizlədilərək gətirildiyi qeyd edilir. Hüquq mühafizə orqanları Avropanın Latın Amerikası ölkələrindən idxala qadağa qoymadığı üçün bu üsulu "möhtəşəm addım" adlandırırlar. Bəzi mütəxəssislər hesab edirlər ki, sərhədlərin bağlanması Avropaya narkotik daşınmasına ümumiyyətlə təsir etməyib. 2020-ci ilin ilk rübündə qitədə 17,5 ton kokain aşkar edilib ki, bu, 2019-cu illə müqayisədə 20 faiz çoxdur.***

*****

Avropa İttifaqı ölkələrində kiberhücumların sayı koronavirus pandemiyası fonunda kəskin artıb. Belə ki, təkcə aprel ayında onların sayı mart ayının göstəricilərini altı dəfə üstələyib.

Məruzədə bildirilir ki, söhbət çox vaxt fişinqdən, yəni istifadəçilərin şəxsi məlumatlarının, kredit kartlarının nömrələrinin və parollarının internet üzərindən ələ keçirilməsi məqsədi daşıyan dələduzluq hallarından gedir. Pul qoparmaq məqsədi güdən proqramlar tərəfindən hücumların sayı 19 faiz artıb. Onlar xəstəxana və hava limanlarını da hədəf seçiblər. Müdafiə təyinatlı müəssisələr də hücumlara məruz qalıb. Macarıstanda hətta termal hamamın serverini sındırmaq cəhdi qeydə alınıb. Bu hücumların səbəbi məlum deyil. Çox güman, söhbət oyun ehtirasından gedir, lakin bu fəaliyyətin kriminal mahiyyətini əsla azaltmır.

*****

***İranda il ərzində 4 min nəfər narkotik istifadəsinə görə həyatını itirir. Bunu İranın Narkotiklərlə Mübarizə Qərargahının katibi İskəndər Mömini deyib. O bildirib ki, ölkədə 2 milyon 800 min nəfər narkotik istifadəçi var, bu da əhalinin 5 faizini təşkil edir.***

***Mömininin sözlərinə görə, ötən il İranda 950 ton narkotik maddə müsadirə olunub.***

*Natiq Cavadov*

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
BURAXILIŞA MƏSUL: E.ZAHİDOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.044
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik